# "Ömür yollarım"la addım-addım

**Şair Rauf İlyasoğlu 1959-cu il mart ayının 19-da Ağdam rayonunda ziyalı ailədə dünyaya gəlib. İlk məqaləsi 1975-ci ildə "Lenin yolu" adlı rayon qəzetində dərc olunub. Müəllifin oçerk, məqalə və şeirləri yerli mətbuatla yanaşı, Türkiyə, İran, Misir Ərəb Respublikası və İraqda da nəşr edilib. Azərbaycan Jurnalistlər Birliyinin və İraq Türkmən Yazarlar Birliyinin üzvüdür.**




Milli Qəhrəman Mübariz İbrahimova həsr etdiyi "Vətən sağ olsun" şeiri 2011-ci ildən orta məktəb dərsliklərinə salınıb. Rauf İlyasoğlu "Könül duyğularım", "Aprel şəhidləri. Pəncəli Teymurov", "Culfa şəhidləri", "Asimana ucalan şəhidlər" və digər kitabların müəllifidir. "Ömür yollarım" isə şairin sayca iyirminci kitabıdır. Burada onun müxtəlif illərdə qələmə aldığı qoşma, gəraylı, bayatı, dini və satirik mövzuda şeirləri ilə yanaşı, poemaları da toplanıb.

Rauf İlyasoğlu bu kitabda da ənənəsinə sadiq qalaraq şəhidlərlə bağlı şeirlərə daha çox yer ayırıb. Onun "Xudayar nəğməsi" şeiri İkinci Qarabağ müharibəsində şəhid olan Xudayar Yusifzadəyə həsr edilib.

*Vətən nəğməsini oxuyan zaman,*
*Nələr düşünürdün görən Xudayar?*
*Sənin avazını eşidən o an,*
*Azad oldu yurdum, o doğma diyar.*

"Ölməz şəhidlər", "Azad edək yurdu, şanlı əsgərim", "Şəhidlər qanıyla zəfər qazandı" və digər şeirlər də kitabda öz əksini tapıb.

Rauf İlyasoğlunun "Ömür yollarım" kitabında Birinci və İkinci Qarabağ müharibələrində, 20 Yanvar hadisələrində şəhid olan mərd oğullarımıza, eləcə də vətən, torpaq və milli-mənəvi dəyərlərimizə həsr etdiyi poeziya nümunələri yer alır. Ümumilikdə isə kitabda olan şeirlərin hər birində Vətən, torpaq, el məhəbbəti duyulur. 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda törətdikləri vəhşilik, vandallıq pislənir, nümunələrlə bədii şəkildə oxucuya təqdim edilir. Xarabazara çevrilən yurd yerlərinin, düşmən tərəfindən tamamilə dağıdılmış doğma Ağdam şəhərinin vəziyyəti geniş ictimaiyyətə çatdırılır.

"Ömür yollarım"ı oxunaqlı edən məqamlardan biri də sevgi, məhəbbət nəğmələri, etiraflarıdır. Bu sevgi sadəcə bir gözələ deyil, anaya, vətənə olan məhəbbətdir. Anaya, o müqəddəs varlığa olan sevgi, ehtiram, qayğı və diqqət təbliğ edilir:

*Ana görüşünə indi tələsmək,*
*Ən şirin istəkdir, arzudur, oğul!*
*Söyləmə işim çox, söhbəti kəsmə,*
*Ananın sevinci ruzidir, oğul!*

Kitabda ana Vətənin gözəllikləri, təbii ehtiyatlarımız, sərvətlərimiz, bədii dillə vəsf olunur. "Bəs niyə asta, lal, axırsan, Araz" şeirində illərdir vətənə sarı boylanan Naxçıvanın gözəlliklərindən söhbət açılır. Növbəti bölümdə isə dini, müqəddəs Quranın ibrətamiz dəyərlərini özündə yaşadan şeirlər təqdim edilir. Kitabda müəllifin qələmə aldığı qəzəllər, rübailər, deyişmələr və poemalar yer alıb.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 27 aprel (№84).-